♦ Hekayə

*Narıngül NADİR*

# Qaraşın oğlan



Ürəyimdə əməlli-başlı məhkəmə qurduğum anda ondan ismarıc alıram: "Saat 8-də səni çətirli küçədə gözləyəcəm".

Getməməyi düşünsəm də, ürəyim dərhal "gedəcəksən" deyir. Əlüstü hazırlaşıram. Həm də, bu dəfə daha baxımlı olmağa çalışıram. İstəyirəm daha çox xoşuna gəlim. Amma ağlımda tamam başqa şeylər planlaşdırmışdım. Ağıl da ki, nə ağıl… Ağlım olsa, dəli-divanə olub arxasınca sürünmərəm ki…

Demək, bu şəhərdə də çətirli küçə varmış. Səyahət etdiyim yerlərdə rast gəlsəm də, yaşadığım şəhərdə belə küçə olduğunu bulmirdim. Özü də lap yaxınlıqda imiş.

Onun dediyi vaxtdan xeyli əvvəl gəlib çətirli küçəni dolaşıram. Göyün üzündən asılmış al-əlvan çətirlər küçəni əməlli-başlı mühafizə edib. Qəribə ruhu varmış buranın. Əhvalım xeyli yüksəlir. Halbuki, bura gələndə ürəyimdə xeyli müəmmalar, tərəddüdlər vardı. Tərəddüdlərim də səbəbsiz deyil. Son vaxtlar o, mənə qarşı əməlli-başlı soyuq və laqeyd olub. Tez-tez itib-batır. Sonuncu görüşümüzdən sonra isə, düz bir aydır, nə zəng edib, nə də bir ismarıc yollayıb.

Küçəni dolaşaraq onun hansı tərəfdən gələcəyini müəyyənləşdirməyə çalışıram. Uzaqdan görüncə ürəyim çırpınır. Hələ canıma xoşbəxtliyə oxşar bir duyğu da yayılır. Ona görə oxşar deyirəm ki, daha arxayın deyiləm bu duyğudan… Düz üstümə gəlir. Həmişə belədir, itib-batandan sonra, heç nə olmamış kimi, xoş əhvalla geri dönür.

Onu görüncə ürəyim döyünür, amma "hardasan, qaçqın?" deməkdən də özümü saxlayammıram. Eşitməzliyə vurur. Deyəsən, heç ciddiyə almır. Mısmırığımı sallayıram. Küçənin başındakı xudmani bir restoran-kafeyə üz tuturuq. Kafenin qapısındakı gözətçi də, sarı saçlı xidmətçi qadın da onu ehtiramla qarşılayır.

Yenə də dilimi dinc qoymuram:

–Deyəsən, kafedəkiləri əməlli-başlı tanıyırsan axı?..

–Dostlarla hərdən gəlib əyləşirik- burnuma çırtmayla vurur.

Bir küncdə əyləşirik. Beynimi işə salır, planlar qururam. İstəyirəm birbaşa diqqət mərkəzində olum. Gözlərini məndən çəkməsin. Kompliment,-filan, sevgi etirafları… Gözlərinin içinə baxıb gülümsünürəm. O isə gözlərini uzağa zilləyib. Deyəsən, fikri başqa yerdədir. Amma gözlərinin içi gülür. Belədə içimə qəzəb dolur. Necə deyərlər, mərd-mərdanə, düzü-düzünə hücuma keçmək istəyirəm. Üzünə baxıram. Üzündə elə bir rahatlıq var ki, doğrusu, adam bu rahatlığı pozmaqda aciz qalır. Açıq-aydın görünür ki, əhvalı yuxarıdır. “Döyüş ruhum” öz-özünə sönür. Əlini atıb saçıma sığal çəkmək istəyir, başımı qaçırıram. Təəccüblə üzümə baxır:

–Çətirli kafe ciddiyyəti sevməz.

–Amma mən ciddi münasibətləri sevirəm. Məsələn, bir aydır yoxa çıxmağın heç də ciddi sayılmaz. Ümumiyyətlə, son vaxtlar neçənci dəfədir itib-batırsan.

Deyəsən, “İtib-batırsan” sözü heç də yaxşı səslənmədi. Ürəyinə toxunmaq istəmirəm. Bir qədər duruxub söhbəti davam etdirirəm:

–Bir sözlə, mən münasibətlərimizin aydınlaşmasını istəyirəm. Mən istəyirəm ki…

Deyəsən, artıq nələrsə baş verir. Özüm də özümə mat qalıram.

O, gözləriylə ofisiantı axtarır, hiss edirəm ki, mənə qulaq asmır.

Qalib görünmək istəyim yenə də suya düşür. Nümayiş etdirmək istədiyim qətiyyət-filan heç cür alınmır. Daxilən məğlub olduğumu qəbul edir və özümə əməlli-başlı qəzəblənirəm.

Ofisiant qadın bizə yaxınlaşır. Əlində tutduğu sinidəki büllur qədəhləri və növbənöv yeməkləri masaya düzür, qədəhlərə qırmızı şərab süzür. Şən səslə qədəhini qaldırır.

–Sənin sağlığına! Dedi-qodular, giley-güzarlar bu andan bitdi! Həyat gözəldir!

Qədəhimi qaldırıram. Həmişəki kimi, dodağıma toxundurub masaya qoyuram. O isə qədəhini başına çəkib, dalğa-dalğa süzülən musiqi sədaları altında yerində yırğalanaraq ağappaq nimçələrə yemək çəkir.

Bir qədər sonra restoranın masaları, demək olar ki, dolur. Son vaxtlar efirlərdən düşməyən “sırtıq” müğənni masaların arası ilə gezişərək şən bir mahnı oxuyur. Əslində, mən sakit bir yerdə əyləşməyimizi istəyərdim. Adam balası kimi söhbətimi edərdim. Diqqəti də məndə olardı. Ayda-ildə bir dəfə görüşürük. Odur ki, qəsdən dinib-danışmıram. Yəqin indicə bostan oyuğu kimi donuq qalmağımın səbəbini öyrənmək istəyəcək. Bir qədər də dinib-danışmasam, mütləq diqqətini çəkəcək. Özümü sıxıram. Amma heç vecinə də deyil! Səslənən mahnını dodaqaltı zümzümə edərək müğənniyə yoldaşlıq edir. Deyəsən, susmaq işə yaramır… Bu dəfə başqa yöndən diqqətini çəkmək istəyirəm. Həm də gərgin olmağımın səbəbini sığortalamaq üçün söhbətə tamamilə başqa səmtdən başlayıram:

– Bilirsən nə fikirləşirəm? Mübariz olmaq da, sən demə, bir şey deyilmiş… Son günlər adamlarla aramızda gərginlik yaranıb. Adamlar məntiqsiz, düşüncəsiz şəkildə gündəmə atılırlar, hamısı da az qala, xorla danışır, hər şeyə anında xorla münasibət bildirirlər. Mən isə hesab edirəm ki, kütləviliyə hesablanmış hərəkətlərin arxasında həmişə məqsədli sifarişlər dayanır və aldanışlar olur. Haqlı olduğumu da bilirəm. İstəsəm, bunu sübut da edə bilərəm. Amma tək qalmaq, axına qarşı hərəkət etmək də asan deyil…

O, diqqətlə üzümə baxır. Aha, bu dəfə bütün fikri məndədir.

Deyəsən, çox uzaqdan başladım axı… Hər halda, diqqətini çəkə bildim. Həm də o, belə mövzularda uduzan deyil. Bu saat tam əksini gətirəcək. Həmişə də məni məğlub etməyə çalışır. Belə də olur.

–Bu, sənə elə gəlir. Sən öz məntiqini güclü hesab edirsən, öz düşüncəndə bunu isbatlayırsan. Bu, sadəcə, sənin fərqli görünmək cəhdindir. Reallıq isə düşüncəyə deyil, təcrübəyə və gücə hesablanır. Güclü olan qalib gəlir. Və sən fərd kimi təkliyə çəkilmisənsə, uduzacaqsan. Haqlı olmaq və güc başqa şeylərdir.

Razılaşmıram, etiraz etmək istəyirəm. Onunla bu mövzuda kifayət qədər danışmaq mümkündür. Yeganə sahədir ki, söhbətimiz tutur. Odur ki, tez-tez belə mövzulara girişirəm. Əlbəttə, istəməzdim ki, söhbətimizin mövzusu bu olsun… Mən sığallanmaq, sevilmək istəyirəm.

Qoluma toxunur.

–Yaxşısı budur rəqs edək, kefimiz açılsın.

Ayağa qalxıb ortada rəqs edənlərə qoşuluruq. Məni özünə çəkir, nəfəsini üzümdə hiss edirəm az qala. Xoşbəxt olmaq, fərəhlənmək üçün qanadlanıram. Aramızdakı hərarət dalğa-dalğa canıma yayılır, bədənim gizildəyir. Mən xoşbəxtəm!

Az sonra içimdəki müəmmalar, şübhələr yenə də baş qaldırır, qollarımdan yapışan bu adamın məndən uzaq olması hissi canıma yayılır.

Evə çatan kimi tuflilərimi çıxarıb hərəsini bir küncə tullayıram. Deyəsən, bu adam məni ciddiyə almır. Görəsən, onun üçün nə qədər əhəmiyyətliyəm? Aramızdakı tarazlıq nə qədər pozulub? Yaxud onun həyatının harasındayam? Guya birdəfəlik soruşacaqdım. Ortada çözüləsi çox şey vardı. Danışmalıydım axır ki… Aydınlaşdırmaq olardı hər şeyi.

Amma bu çətirli küçə nədənsə məni yaman çəkdi…

Düz bir həftə sonra yenidən çətirli küçəyə yollanıram. Küçəylə gəzişərək onu düşünürəm. Hüdudsuz hisslərimin ortasında qəti qərara gəlmək istəyirəm.

Küçənin başındakı restoran-kafenin işıqları yanıb-sönür. Nədənsə, ürəyimdən içəri daxil olmaq keçir. Dərhal özümə qadağa qoyuram: olmaz! Amma içəri daxil olacam! Ürəyimdən keçdisə, qurtardı. Özümü də tanıyıram axı… Bir şey beynimə düşdüsə, əl çəkən deyiləm… Bir qədər tərəddüddən sonra qərara alıram ki, əyləşib bir stəkan çay, yaxud

bir fincan qəhvə içməkdə heç bir qəbahət yoxdur. Sadəcə olaraq, qapı tərəfdəki küncdə əyləşmək lazımdır. Tək olduğum üçün diqqət çəkmək istəmirəm. Masamı gözucu işarələyib küncdə əyləşirəm. Sarı saçlı ofisiant qadın masaya yaxınlaşır, üzünə gülümsünürəm. Məni tanıdığını zənn edirəm. Yəqin keçən dəfədən yadında qalıb. O da gülümsünür, amma hiss edirəm ki, məni tanımır. Qəhvə sifariş edirəm. Yanaşı masada əyləşən kişi gözlərini üzümə zilləyir, baxışlarımız rastlaşdıqda gülümsünür, diqqətimi çəkməyə çalışır. Əhəmiyyət vermirəm. Gözüm alaqaranlığa alışandan sonra onunla əyləşdiyimiz masanı axtarıram. Birdən-birə sanki elektrik cərəyanına toxunuram. Bədənimdən bir gizilti keçir. Ürəyim sürətlə vurur. O, gənc bir qızla üzü divara sarı əyləşib. Şirin-şirin danışıb-gülürlər. Bəli! Mənim sevdiyim başqasıyla əyləşib. Hiss olunur ki, əhvalları gözəldir. Qızın üzü mənə tərəf olduğundan ürəyim döyünə-döyünə əməlli-başlı nəzərdən keçirirəm. Etirafımdan xoşlanmasam da, deyim ki, yaraşıqlı qızdır. Dodağını al qırmızı boyaması nəzərə alınmasa, zövqlə bəzənib. Qız cingiltili səslə gülür. Gülüşü o qədər cingiltilidir ki, hətta masadakı büllur qədəhlər bu səsdən çilinglənə bilər. Sonra qırmızı şərabla dolu qədəhləri yuxarı qaldırırlar. O, ucadan: “Sənin sağlığına” – deyir. Qız şərab rəngli dodaqlarını qədəhə toxundurur, şərabı başına çəkir.



Yenidən gülüş səsləri eşidilir. Sonra musiqi sədaları altında rəqs edirlər. Eynən keçən həftə bizim rəqs etdiyimiz musiqidr. Hətta aralarındakı hərarəti də hiss edirəm. Bu hərarət alova çevrilib canımı yandırır. Ürəyimə sərhədi bilinməyən qısqanclıq dolur. Mənə elə gəlir ki, dünyada bundan xoşbəxt cütlük yoxdur. Yox, daha bir dəqiqə də burda dayanmaq olmaz!.. Ölə bilərəm!

Fincanı nəlbəkiyə qoyub astaca ayağa qalxıram. Restorandan çıxıram. Demək, belə… Özümü məğlub edilmiş döyüşçüyə bənzədirəm. Al qırmızı pomadalı qız məni məğlub edib. Məni döyüşsüz şil-küt ediblər, yerlə-yeksanam. Mən dünyanın ən məğlub insanıyam. Məni öz sevgimdən diksindirdilər. Lap elə bəxbəxtəm də deyə bilərəm. Kafedə səslənən musiqini zümzümə edirəm. Dənizin sahilinə düşürəm, xeyli gəzişirəm. Ürəyimdəki təlatümə baxmayaraq, beynim aydındır. Bu dəfə açmaq istədiyim kələfi daha soyuq başla didişdirməyə çalışıram. Bəlkə də, heç nə dəyişməyib, o, elə əvvəldən belə imiş… Onsuz da çoxdan hiss etmişdim ki, bu adam özünü sevən

adamdır, həm də özünəməxsus soyuqluğu, laqeydliyi var. Sadəcə olaraq, açıqlamaq vaxtı indi yetişib. Bəs münasibətimiz? Aha, deyəsən, onun da cavabını tapıram. Görünür, əlbəttə, onun tərəfdə sevgi-filan yox imiş, sadəcə, xoşuna gəlmişəm. İndi marağı azalıb… Bəs, elədirsə, niyə tamamilə çəkilib getmir… Tez-tez geri qayıdıb heç nə olmamış kimi, özünü sevdirə bilir… Müəmma da elə sevdirə bilməsindədir… O, mənə özünü sevdirir.

Yolboyu fikirlər beynimi döyəcləyir. Yaxşı, bu adamla nə edim? Bir çıxış yolu, bir çözüm olmalıdır axı...

Bəlkə, bundan sonra zənglərinə, ismarıclarına cavab verməyim? Telefonumu söndürüm, itib-batım, bir-birimizin həyatından sakit-səssiz yox olaq?.. Onsuz da, gec-tez, bu, olmalıdır. Adam hissə-hissə, damla-damla soyuya bilir... Birdən bacarmasam? Ürəyimdən siləmməsəm? Lənət şeytana!

Uzun çək-çevirdən sonra ona ismarıc yazıram: "Artıq aramızda soyuq havalar mövcuddur. Ötən hər bir dəqiqə, hər bir saat bizi bir-birimizdən uzaqlaşdırır. Yəqin ki, fərqindəsən. Sənin soyuqluğun və bəzi başqa faktlar çox şeydən xəbər verir. Düşünürəm ki, ayrılmağımız qaçılmazdır. Odur ki, gecikdirməsək yaxşıdır!.." Barmağımla telefonun düyməsinə toxunub mesajı göndərirəm. Vəssalam! Rahat nəfəs alıram. Çox keçmədən cavab gəlir.

"Sabah işdən çıxanda məni gözlə! Mütləq gözlə!"

Yenə də məni qərarsızlığa atır, fikir burulğanına salır. Yenə də ümidləndirir. Ürəyimdə saralıb qurumaqda olan ümid toxumları yenidən cücərməyə başlayır. Görəsən, nə deyəcək? Yəqin nədən ayrılmaq istədiyimin səbəbini soruşacaq, üzrxahlıq edəcək. Yüz faiz belə olacaq... Bəlkə də, başqa nələrisə açıqlayacaq. Ümumiyyətlə, görüşmək lazımdırmı? Bəlkə də, heç görüşməyim. Demişdim axı, güclü olmaq, qətiyyət-filan... Onu kafedə başqasıyla gördüyümü yazmalıydım. Yəqin özü anlayacaq. Elə şeylər var ki, onlar dillə deyilmir...

Səhər evdən çıxanda ürəyimdə işdən sonra onu gözləyib-gözləməyəcəyimi çək-çevir edirəm. Bir qərara gələ bilmirəm. İçimdəki bir səs isə "gözləyəcəksən!" deyir.

Binamızın tinindən keçərkən hiss edirəm ki, kimsə məni izləyir. Kölgəsindən tanıyıram, hər səhər rastlaşdığım Qaraşın oğlandır. Elə bilir ki, onu görmürəm. Ürəyimdə "mənim Məcnunum" deyib, hər dəfə məzələnirəm onunla. Həmişəki kimi, binanın tinində dayanıb baxışlarıyla məni ötürür. Hər gün dayanacaqdan yola salır, amma yaxınlaşıb bir kəlmə də demir. Bu oğlan bir dəfə məni az qala ölümdən də qurtarıb. Küləkli bir gündə qulaqcığımı külək alıb birbaşa magistral yolun ortasına atmışdı. Özümü yola atıb qulaqcığı götürmək istəyərkən qolumdan yapışmışdı. Cəld hərəkət etməsəydi, bəlkə də, sürətlə tindən çıxan böyük yük maşınının altına düşəcək, asfalta yapışacaqdım. Deməli, bu adam mənim qəhrəmanımdır. Lap filmlərdəki kimi... Amma heç dəyişmir, yenə də əvvəlki kimi sakit və təmkinlidir. İnadla məni izlədiyini hiss

etdirməməyə çalışır. Birinci dəfədir ki, düz yaxınlığında dayanıb salamlaşıram. Deyəsən, özünü itirir. İlk dəfə diqqətlə üzünə baxıram və ürəyimdən keçir ki, yaraşıqlıdır. “Onun yaraşığından sənə nə?” – dərhal özümü yığışdırıram. Ehmalca salamlaşırıq.

Gözlədiyim marşrut avtobusu görünmür, bu gün nədənsə ləngiyir. Narahatlıqla dayanacaqda var-gəl edirəm.

Və budur, Qaraşın oğlan, axır ki, tilsimi qırıb dillənir:

–Bağışlayın, sizin gözlədiyiniz marşrut səmtini dəyişib, daha bu küçədən keçmir. Odur ki, yolunuzu dəyişməlisiniz.

“Paho! Mənim yolumu dəyişib-dəyişməyəcəyimdən sənə nə?” demək istəyirəm. Amma demirəm.

–Barı xəbərdarlıq edərdilər, – deyə söylənirəm.

Üzünə baxıram.

–Siz nədən bildiniz ki, mənim marşrutum hansıdır?

Gülümsünür. Qeyri-ixtiyari mən də gülümsünürəm.

O biri küçəyə keçirəm. Bir söz demədən o da mənim yanıma düşür. Qoşa addımlayırıq. Nədənsə, etiraz edə bilmirəm. O, durmadan danışır, sehrlənmiş kimi onu dinləyirəm. Sanki illərin tanışıyıqmış. Onun yanında özümü çox rahat hiss edirəm.

Qaraşın oğlan çox xoşbəxt görünür.

–Açığını deyim, xeyli müddətdir izləyirəm, nə gizlədim, çox xoşum gəlir səndən. Səhərlər səni ötürməsəm, sanki bütün günüm boş keçir.

Nə gizlədim, xoşuma gəlir onun bu etirafları. O isə qəfildən susur. İstəyirəm deyim ki, nə oldu, niyə susdun? İstəyirəm o, durmadan danışsın, çox danışsın.

–Bəs niyə yaxınlaşıb heç nə demirdin?

Az qalıram Qaraşın oğlanla davaya çıxım. Düz gözlərinin içinə baxıram, hə, nə oldu, danış!

O isə, deyəsən, açıq və konkret danışmağı sevir.

–Doğrusu, heç özüm də bilmirəm... Hər gün yaxınlaşıb ürəyimi açmaq istəyirdim, amma alınmırdı. Bir də ki... elə şeylər var ki, dillə deyilmir...

Birdən o, dayanıb üzünü əks səmtə tutur.

–Bəlkə, çətirli küçəylə gedək, qəribə ruhu var o küçənin.

Təəccüblə üzünə baxıram. Az qalıram deyim ki, mən də belə düşünürəm, Qaraşın oğlan! Mənim kimi düşünürsən, xəbərin varmı? Küçənin başındakı meydanı dolanıb çətirli küçəyə çıxırıq. Hardansa canıma qəribə bir rahatlıq axır. Bu rahatlığın içərisində bir arxayınlıq, əminlik var. Deyirlər, adam yalnız əmin olduğu yerdə xoşbəxt olur. Nə bilim... Külək çətirləri astaca yelləyir, çətirlərin arasından göyün üzü görünür.

Üzümü göyə tuturam:

–Amma küçənin mühafizəsində boşluq var...

Mənzil başına çatıb sağollaşmaq üçün üz-üzə dayanırıq. Qaraşın oğlan həyəcanla nələrisə anladır, bir az da tələsir. Yaraşıqlı üzündə özünü isbat etməyə cəhd edən və həyəcanla qərar gözləyən bir

məhkumun ifadəsi var. Onu çox gözəl anlayıram. Amma mən qərarlı deyiləm. Qaraşın oğlanla üz-üzə dayansam da, yenə də fikrim axşam ona yazdığım ismarıcın yanına uçur. Gərək kafedə qızla gördüyümü yazaydım...

* * *

İşdən sonra dediyi yerdə dayanıb onu gözləyirəm. Həmişə burda görüşürük. Dediyi vaxtdan xeyli ötsə də, hələ də görünmür. Amma gözləməkdə israrlıyam. Sona qədər dayanıb gözləyəcəyəm! Bəlkə də, elə bu da sonuncu görüşümüz olacaq, yaxşı xatirə buraxmayacaq. Bəlkə də, birdəfəlik ürəyimdən siləcəm. Amma yenə də olsun…

Birdən-birə göyün üzü tutulur, yağış başlayır, getdikcə şiddətlənir. Damlalar get-gedə bərkiyərək sökülməsi nəzərdə tutulmuş əyri, yapalaq damların qırmızı örtüyünü inadla döyəcləyir. Başlarına çətir tutmuş adamlar bir andaca səkidən, küçədən qeyb olurlar. Küçədə təkcə mən qalıram, bir də yaxınlıqdakı maşın dayanacağının qoca gözətçisi. Qoca heç yerə tələsmir, tam arxayındır, balaca otağında şəstlə əyləşərək qarşısındakı çayın seyrək buxarı arasından yağışı seyr edir. Qoca birdən başını pəncərədn çıxarır, hökmlü səslə dillənir:

– Yağışın altında bu qədər dayanmaq olar?! Tamam islanmısan! Gəl, heç olmasa, içəridə gözlə, xəstələnərsən!

Ürəyimdə ona söylənirəm: “Bircə sən çatmırdın”.

Gülümsünərək mızıldanıram.

– Heç nə olmaz!

– Heç nə olmaz, heç nə olmaz…

Qoca dodaqaltı deyinir, sonra sanki ultimatum verir:

– Barı özünlə çətir götürəydin! Hanı çətirin?!

Bu dəfə məğlub səslə dillənirəm:

– Çətiri heç xoşlamıram. Zəhləm gedir çətirdən.

Qoca inadkarlığından əı çəkmir.

– İstədin-istəmədin, dəxli yoxdur! Qadının həmişə çətirə ehtiyacı olur!

“Yox bir, çətir!” Ürəyimdə söylənirəm.

Yağışın altında boş küçə ilə gəzişirəm. Qoca gözətçinin də narahatlığını özümlə o baş-bu başa aparıram.

Təpədən-dırnağa islanmışam.

Onun dediyi vaxtdan iki saat keçib. Hələ də yoxdur. O, mənim ümidimi tikə-tikə edib yerə səpələyir. Küçədə gölməçələnən suyun içərisi qırıq-qırıq ümidlərlə dolur. Gölməçə dolub ətrafa daşır. Amma yenə də inadla gözləyirəm. Qəzəbdən, inaddan daha çox özümdən mazoxistcəsinə intiqam almağa çalışıram. Düşünürəm ki, nə qədər çox əzab çəksəm, o qədər güclü və qərarlı ola bilərəm. Hiss edirəm ki, dişim dişimə dəyir, titrəyirəm. Qoca düz deyir, yəqin ki, belə yağışdan sonra xəstələnəcəyəm. Başımı qaldırıb göyə boylanıram. Göyün üzü boz rəngli toz dumana bürünüb. Bu an mənə elə gəlir ki, yağış mənə görə

yağır və ondan çıxmağa gücüm çatmayacaq. Bəlkə də, elə bu yağışın altında öləcəyəm. Suyu sürətlə canıma çəkirəm. Amma hər nə də olsa, ölmək istəməzdim… Yaşamaq istəyirəm. Suya düşmüş sərçə balası kimi ətrafa boylanıram.

Qəflətən sanki başımın üstündə günəş doğur. Bu nədir, yağış birdənbirə necə kəsdi? İndicə göydən su axırdı axı. Amma indi hər tərəf qupqurudur, yağış kəsib, hava isinib. Deyəsən, möcüzə baş verir. Hələ göyün rəngi də dəyişib, al-əlvandır. Başımı qaldırıb yuxarı boylanıram. Üzərimdəki göy qurşağını andıran, rəngləri bir-birinə qarışmış yarımşəffaf örtüyün çətir olduğunu anlayıram. Səhər məni ötürən Qaraşın Oğlan ərklə çətiri mənə uzadır, sonra qayğıkeşliklə dillənir:

– Götür, əməlli-başlı islanmısan, suyun içindəsən, - üzünü göyə tutur – bu yağış, kəsənə oxşamır.

Bir söz demədən soyuqdan buz kimi donmuş əlimi uzadıb çətiri götürürəm.

Qaraşın Oğlan ehmalca qoluma toxunur:

–Gedək!

Yenə də, səhərki kimi, qoşa addımlayırıq.

Qoca gözətçi pəncərədən başını çıxardıb bizə baxır, məmnun-məmnun gülümsünür.

Qaraşın oğlanla yanaşı küçənin başındakı meydana tərəf gedirik. İstiqaməti o seçir. Bu an tamamilə onun tabeliyindəyəm. Hansısa sehrli qüvvə məni öz ağuşuna alıb. Meydanın o tərəfi isə çətirli küçədir. Çətirli küçə qupqurudur…

Yağış hələ də kəsməyib. İkimiz də susmuşuq. Yalnız ürəyimizin döyüntüsünü və çətirə çırpılan yağış damlalarının səsini eşidirik. Damlalar sanki məchulluqdan boylanan naməlum bir xoşbəxtliyin qapısını döyür…

Doğrudan da, hər bir qadının başı üzərində bir çətirə ehtiyacı var. Siz də buna inanın!

Bunu mən deyirəm sizə. Yağışın altında kifayət qədər islanmış, soyuq və ehtiraslı damlalara kifayət qədər bələd olan birisi söyləyir sizə...

İnanın!..